# 70 il birgə...

*Müşfiqə BAYRAMLI*



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti üzrə hazırlanmışdır**

### MİRZƏBƏYOVLAR AİLƏSİNİN XOŞBƏXTLİK SİRRİ

Ailə dəyərlərinin qorunaraq gənc nəslə çatdırılması, xüsusilə də həssas qrupdan olan ailələrin rifahının yaxşılaşdırılması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Müstəqilliyimizi bərpa etdiyimiz ilk illərdən başlayaraq, Azərbaycanda ailə dəyərlərinin qorunması və təbliği, qadın və uşaq hüquqlarının müdafiəsi, gender bərabərliyinin təmin edilməsi dövlət siyasətinin prioritet istiqamətləri kimi müəyyən olunub. Ulu öndər Heydər Əliyev Azərbaycan ailəsi və onun problemlərini həmişə diqqətdə saxlayırdı. Bu münasibət indi də Prezident İlham Əliyev tərəfindən həssaslıqla davam etdirilir.

### SON 20 İLDƏ 75 MİNƏ YAXIN AİLƏ QURULUB

Dövlət Statistika Komitəsinin hesabatına görə, 2021-ci ilin yanvar-sentyabr aylarında Azərbaycanda 41067 nikah rəsmiləşib. Azərbaycanın müstəqilliyinin bərpa olunduğu 1991-ci ildə isə rəsmi nikahların sayı 74378 göstərilib.

Statistikaya görə, 2020-ci ildə nikah sayında kəskin azalma müşahidə olunur. Bu səbəb isə dünyanı bürüyən koronavirus pandemiyasıdır. Belə ki, Azərbaycanda toy mərasimləri həmin il martın 16-dan 2021-ci il iyulun 1-dək yasaq edilmişdi.

"Bu gün ailələrimizin daha möhkəm və sağlam əsaslar üzərində qurulması, onların firavanlığının təmin edilməsi, güclü ailələrin formalaşması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Ailə və uşaq problemlərinin qadın problemləri ilə əlaqəli surətdə kompleks həlli məqsədilə 2006-cı ildə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb".

Bu fikirləri Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Ailə Problemləri şöbəsinin müdiri Gülnarə Məmmədova qəzetimizə açıqlamasında deyib.

Bildirilib ki, Komitə tərəfindən nümunəvi ailə modellərinin tanıdılması və belə ailələrdəki münasibətlərdə uzunömürlülüyün sirri, ailədaxili birliyin təbliği məqsədilə "Ailələrimizi tanıyaq" layihəsi həyata keçirilir: "Layihə çərçivəsində Azərbaycanın müxtəlif regionlarında yaşayan nümunəvi ailələr haqqında məlumatlar toplayıb, səhifəmizdə təqdim edirik. Düşünürəm ki, yaşlı nəslin xatirə və təcrübələrini, onların ailə münasibətlərinin düzgün qurulması istiqamətində verdiyi məsləhətləri oxucularımıza çatdırmaq əhəmiyyətli işdir".

### MİRZƏBƏYOVLAR AİLƏSİNİN 10 ÖVLADI, 34 NƏVƏSİ, 60 NƏTİCƏSİ VƏ 34 KÖTÜKCƏSİ VAR

Azərbaycanda ailə hər zaman cəmiyyətimizin ən müqəddəs təməl daşı hesab olunub. Qarşılıqlı sevgi və ehtiram kimi yüksək dəyərlər üzərində qurulan Azərbaycan ailəsi milli mədəniyyətimizin, adət-ənənələrimizin daşıyıcısıdır. Belə ailələrdən biri də 70 il birlikdə ömür sürən Mirzəbəyovlar ailəsidir. Quba rayonunda yaşayan Səbiyyə və Şirinbəy Mirzəbəyovlar 1951-ci ildə qurduqları ailənin uzunömürlü olmasının səbəbini qarşılıqlı hörmətdə, sevgi və sədaqətdə görürlər. Onlar beş oğul, beş qız tərbiyə edib, boya-başa çatdırıblar. Bu gün onların hər biri ailə başçısıdır. Nənə-babanın 34 nəvəsi, 60 nəticəsi və 34 kötükcəsi var.

Şirinbəy baba söhbət zamanı bildirib ki, ömürgün yoldaşını özü görüb, bəyənib və elçi düşüb. Ailə qurduqdan sonra birlikdə kolxozda işləyiblər. Hər zaman halal zəhmətləri ilə ailəsini dolandıran Mirzəbəyovlar el-oba arasında da hörmət və izzət qazanıblar.

### UZUNÖMÜRLÜ AİLƏNİN SİRRİ NƏDİR?

Şirinbəy baba deyir ki, ailənin möhkəm olması üçün sağlam bünövrə, sevgi və mehriban münasibət əsas şərtdir: "Ailədə qarşılıqlı hörmət olmalıdır. Hər çətinliyə birgə sinə gərmək lazımdır. Biz ailə quranda çox gənc idik. Həyatı birlikdə öyrəndik. Həyat həmişə asan və düz yoldan ibarət deyil. Çətinliklərin öhdəsindən birlikdə gəlməyə çalışdıq. Birgə mübarizə apardıq. Çünki bizi qarşıda daha uzun yolların gözlədiyini bilirdik. Daha sonra həyatımıza uşaqlar daxil oldu, qayğılar artdı. Amma bu, xoş qayğılar idi".

Səbiyyə nənə isə deyir ki, ailəmizin uzunömürlülüyünün sirri də elə xoş günlərə birgə sevinib, çətində bir-birimizə arxalanmağımız, həyat yüklü məsələlərdə birgə qərar verməyimizdir: "Gənc ailələrə baxıram, xırda problem yaşanan kimi boşanmaq barədə düşünürlər. Sevgi üzərində qurulan ailəni dağıtmaq belə asandır? Sevirsən, bir könüldənmin könülə aşiq olursan. Sevdiyin üçün səbir etməyi öyrənirsən. Bilirsən ki, çətin günün ömrü az olar. 10 övladımız var. Aralarında heç bir ayrı-seçkilik etmədən, fərq qoymadan böyütmüşük".

Şirinbəy müəllim və Səbiyyə xanım cəmiyyətə layiqli vətəndaşlar yetişdirmək üçün əllərindən gələni əsirgəməyiblər. Onlar sağlam, tərbiyəli, ağıllı, zəhmətkeş uşaqlar böyütdüklərinə görə özlərini dünyanın ən zəngin insanlarından hesab edirlər və övladları ilə fəxr etdiklərini deyirlər: "Övladlar ailənin güzgüsüdür. Bu güzgünün səni necə göstərəcəyi elə sənin özündən asılıdır. Mən öz 70 illik təcrübəmə güvənib deyirəm ki, əgər el-oba içində hörmətli bir ailənin sahibi olacaqsansa, birinci həyat yoldaşına hörmət edəcəksən. Çünki uşaqlar da böyüyə necə hörmət etmək lazım olduğunu elə sənin özündən öyrənir. Gəncliyimizdə hər əziyyətinə qatlaşdığımız balalarımız bu gün özləri böyük ailə sahibləri olub oğul-uşaqları ilə birgə hər sözümüzü qanun bilib, hər nazımıza dözürlər".

70 il birgə ömür sürmüş Mirzəbəyovlar ailə dəyərlərinin müqəddəsliyindən danışaraq gənc ailələrə tövsiyələrini bildiriblər: Böyük ailə böyük də məsuliyyətdir. Əziz balalarım, ailənizin təməlini möhkəm qurun. Mehriban olun. Can deyib, can eşidin. Bir-birinizi başa düşməyə çalışın. Hər şey qarşılıqlı hörmətdən başlayır. Bir-birinizə güzəştə getməyi bacarın. Elə bizim kimi ailələrdən nümunə götürün. Dalaşıb ailənizi dağıtmayın ki, ahıl yaşınızda tək qalmayasınız".

### XOŞBƏXTLİYİN RƏSMİNİ ÇƏKƏ BİLƏRSƏNMİ?

Bu yaxınlarda Şirinbəy babanın 90 yaşı olacaq. Ailənin ən kiçik oğlu Elçin bəy deyir ki, valideynlərinin ad günlərində bütün ailə bir yerə toplaşar, bayram-bayrama qarışar. Bunu ailənin albomundakı fotolardan da aydın görmək olar: "Şəkillərdə gördükləriniz ailəmizin bir qismidir. Bütün ailə bir rəsmə sığımırıq (gülür). Valideynlərimiz bizə hər zaman nümunə, həyatımıza mayak olublar. Bizi alın təri, zəhmətlə böyüdüblər. Hər birimizə sənət öyrədiblər. Biz də övladları olaraq, onların əməyini itirməməyə çalışmışıq. Qeyd edim ki, ailəmizdə anamın adını daşıyan balaca Səbiyyə bala da var".

Yeni Azərbaycan.- 2021.- 17 dekabr.- S.7.